# Fəal təlim əsasında dərsin planlaşdırılması

**Təranə Rzayeva**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** terane.rzayeva1996@gmail.com

**Rəyçilər:** ped.ü.f.d., dos. M.B. Həsənov,
ped.ü.f.d., dos. S.A. Orucova

**Açar sözlər:** proqramlaşdırma, sinif, müəllim, dərs, resurs, inkişaf, şagirdyönümlü
**Ключевые слова:** программирование, класс, учитель, урок, ресурс, студент-ориентированных
**Key words:** programming, class, teacher, lesson, resource, development, student-oriented

Tədris müəssisələrində yeni təlim texnologiyalarının tətbiqinə, eyni zamanda dünya təhsil sisteminə inteqrasiya aktual məsələdir. Dünya təhsil sisteminə inteqrasiya etmək üçün onun ilk növbədə öyrənilməsi və eyni zamanda milli dəyərlərə uyğunlaşdırılaraq tətbiqi lazımdır. Burada əsas məqsəd mümkün qədər təlim keyfiyyətinin artırılmasıdır. Məhz bu səbəbdən çoxsaylı tədbirlər həyata keçirilir, yeni təlim texnologiyalarının öyrənilməsi və tətbiq olunması məsələlərinə xüsusi diqqət yetirilir.

Tətbiq prosesi sadə bir proses hesab olunmur və müəllimdən böyük ustalıq tələb edir, müəllim işin mahiyyətinə varmağı bacarmalı və eyni zamanda şagirdlərin əqli fəallığının təmin olunmasını diqqətdən kənar qoymamalıdır. Bunun üçün fəal təlim əsasında dərsin planlaşdırılması zamanı müəllim nə etmək və nəyi əldə etmək barədə aydın düşünməlidir. Şagirdləri dərs boyu məşğul etmək hələ təlimin fəal metodlarla həyata keçirilməsi demək deyil. Bunun üçün fəaliyyət və fəal təlimin fərqini bilmək lazımdır. Təbii ki, fəal təlim şagirdləri məqsədyönlü fəaliiyətə cəlb edir, lakin şagirdləri gün boyu məşğul etmək hələ onların fəallaşması demək deyil.

Müəllim dərsin planlaşdırılmasına təlim nəticələrini, tapşırıqları, nizam-intizam qaydalarını və s. məsələləri daxil edə bilər. Lakin bu heç də dərsin tam olaraq şagirdyönümlü həyata keçirilməsi deyil. Belə hallarda şagirdlər öyrənmə prosesində səthi iştirak edir və bir o qədər də bilik qazanmır.

Dərsin fəal təlim əsasında planlaşdırılmasında bir sıra məsələlər diqqət mərkəzində dayanır:

— şagirdlər biliklərini inkişaf etdirmək üçün nə etməlidirlər?

— müəllimin danışdığı zaman şagirdlərin anlamasını necə müəyyən edə bilər?

— şagirdlərin əksəriyyəti müəllimin dediklərini anlayacaq qədər həyat və təlim təcrübəsinə malikdirlərmi?

— müəllim dərsi niyə, hansı məqsədlə keçir: proqramı tam öyrənmək, yoxsa proqramı tam öyrədərək şagirdləri fəal təlim prosesinə qoşmaq?

Təlim prosesinin səmərəli təşkili üçün müəllim cari və illik planlaşdırmada şagirdlərin fərdi tələbatlarını, maraq və meyllərini nəzərə almalıdır. Buraya təlim strategiyaları, təlim üsul və vasitələri, iş formaları, tapşırıqların uyğunlaşdırılması, qrupların tərkibinin müəyyənləşdirilməsi və s. kimi məsələlər aid edilə bilər. Fəaliyyətin bu formada təşkili, yəni şagirdlərin maraqlarının, fərdi xüsusiyyətlərinin nəzərə alınması isə müəllimdən vaxt və güc tələb edir. Lakin effektini də göstərir belə ki, şagirdlər dərs boyu məşğul olanda, təlimdə fəal

iştirak edəndə, dərs maraqlı keçəndə nəticə də göz önündə olur.

Planlaşdırma zamanı müəllim dörd əsas suala cavab verməlidir:

— nə öyrədilməli?

— necə öyrədilməli?

— hansı şəraitdə öyrədilməli?

— nəticələri necə qiymətləndirmək olar?

Bu suallara cavab kimi təlim prosesinin strukturu şərti olaraq dörd tərkib hissədən ibarət sistem kimi təsvir edilir:

— tədris plan və proqramları və ya təlimin məzmunu;

— təlim metodları;

— təlim-tərbiyə prosesinin təşkili;

— şagirdlərin nailiyyətlərinin qiymətləndirilməsi.

Fənnin planlaşdırılması ardıcıllığı aşağıda göstərilən formada həyata keçirilir:

— ilk növbədə standartlar müəyyənləşir, daha sonra tədris vahidi ona uyğunlaşır;

— tədris vahidinin ardıcıllıq prinsiplərini müəyyənləşdirmək. Burada əsas didaktik tələblərə əməl edilir: xronoloji ardıcıllıq, məzmun ardıcıllığı, məntiqi ardıcıllıq nəzərdə tutulur.

— hər tədris vahidi üçün tədris planına uyğun vaxt bölgüsü aparmaq. Bu zaman birinci dərs saatlarının miqdarı hesablanır. Hər tədris vahidinin mürəkkəbliyi nöqteyi nəzərindən vaxt müəyyən edilir. Hər bir halda şagird maraqları üstün tutulur. Təqvim planı hazırlanarkən dərs saatları, dərs ilinin həftələri, tədris ilində baş verəcək mühüm hadisələr, tədris vahidlərinin və onlara daxil ediləcək mövzuların adları müəyyən edilir.

Fənn kurikulumları əsasında gündəlik planlaşdırmada aşağıdakılar nəzərdə tutulur:

— dərsin gözlənilən nəticələrini müəyyən etmək;

— dərsin sonunda şagirdin hansı nəticələrə nail olmasını yoxlamaq;

— dərsin motivasiyasını hazırlamaq;

— tədqiqat zamanı yeni biliklərin toplanması üçün istifadə olunan bilik mənbələrinin müəyyənləşdirilməsi;

— tədqiqat metodlarının müəyyənləşdirilməsi;

— lazımi materialları və iş vərəqini hazırlamaq, tədqiqatın təqdimat formasını müəyyənləşdirmək;

— müzakirə zamanı yönəldici sualları ifadə etmək;

— güman edilən yeni nəticələri nəzərə alaraq əlavə məlumat, tapşırıqlar hazırlamaq və s.

Yeni texnologiyalar ilə təşkil edilmiş dərslər şagirdlərdə tədqiqatçılıq bacarıqlarını, bu yollarla elmi biliklərə yiyələnmək bacarıqlarını artırmaqla yanaşı, onlarda kollektivçilik, yoldaşları ilə normal ünsiyyət bacarıqları yaradır.

Nəticə etibarilə qeyd etmək olar ki, təlim texnologiyalarının düzgün planlaşdırılması elə görüləcək işlərin yarısı hesab oluna bilər. Çünki düzgün qurulmuş, şagirdlərin maraq və tələbatlarını ödəyən plan elə gediləcək yolun yarısı sayılır. Yolun digər yarısı isə müəllimin püşəkarlığndan və şagirdlərin fəallıından asılı olur.

**Məqalənin aktuallığı.** Müasir dövrdə ölkəmizdə tədris müəssisələrində yeni təlim texnologiyalarının tətbiqi, eyni zamanda dünya təhsil sisteminə inteqrasiya məsələsi bəyük əhəmiyyət kəsb edir. Məqalədə də məhz belə vacib məsələyə həsr olunduğundan onu aktual hesab etmək olar.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə dərsin fəal təlim əsasında planlaşdırılmasında zəruri hesab edilən məsələlər araşdırılır, ümumi sistem kimi

tərkib hissələri nəzərdən keçirilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ixtisas və orta ümumtəhsil məktəblərinin müəllimləri, eləcə də tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. H.Əhmədov, N.Zeynalova. Pedaqogika. “Elm və təhsil”. Bakı-2016.
2. Ə.Paşayev, F.Rüstəmov. Pedaqogika. “Elm və təhsil”. Bakı-2010.
3. Həsənov.M.M. Şagird şəxsiyyətinin formalaşmasında yeni təlim texnologiyalarının rolu. “Heydər Əliyev ideya-nəzəri irsində insan amili” mövzusunda elmi-praktik konfransın tezisləri. Bakı, 2013.
4. http://aztehsil.com/kurikulum/809-muasir-drs-v-fal-tlim.html
5. https://metodiktovsiyye.blogspot.com/2015/10/planlasdrma.html?m=1

**Т. Рзаева**

## Планирование уроки на основе активной обучений

## Резюме

Применение новых учебных технологий в учебных заведений является основным требованием современности. Для интеграции этого требованию к новому учебному систему в первую очередь, надо его сопоставлять к национальном достоинством. И в статье затронуто этим вопросом.

**T. Rzayeva**

## Planning a lesson based on active learning

## Summary

Application of the technologies of new training is basic demand of the modern time in establishments of teaching. World is necessary to adapt him to national costs for doing to integration to education system first of all this. Special attention is paid to such problems in the article.

**Redaksiyaya daxil olub:** 28.02.2019